**Azərbaycan Respublikasının**
**Belçika Krallığındakı Səfirliyi**

| | |
|---|---|
| Haradan: | SBRS |
| Haraya: | MİƏİ, MRTİ |
| Surəti: | Aİ üzv ölkələrindəki Səfirliklər, SVŞN, NAVŞ, NNAT |
| Çıxış nömrəsi: | SBRS/ 687 /15 |
| Tarix: | 05 /11/ 15 |
| Sənəd necə göndərilir: | Elektron poçt |
| Səfirliyin ........................N-li məktubuna istinad | |
| Səhifələrin sayı: | 1+3 |
| Əlavə olunur | |
| Məhdudluq qrifi: | Adi |
| Təciliyi: | Adi |
| Vacibliyi: | Çox vacib |
| Əvvəlki müraciətlər: | |

XİN-in .................... N-li məktubuna cavab
..............................................tarixinə qədər cavab verilməlidir

Məruzə üçün: Nazirə,
Nazir müavini: M.Məmməd-Quliyevə
Nazir müavini: A.Əzimova

Məlumat verilməsi üçün: AR Prezidentinin Administrasiyasına

Məsələyə dair: *Avropa İttifaqı və Ermənistan ikitərəfli Sazişi üzrə tərəflər arasında aparılmış müzakirələrə dair*

Səfir Fuad İsgəndərov

İcraçı: Anar Şükürov

Nəzərinizə çatdırırıq ki, 4 noyabr 2015-ci il tarixində Avropa İttifaqı (Aİ) – Ermənistan Əməkdaşlıq Komitəsinin Yerevan şəhərində növbəti iclası keçirilmişdir. Aİ nümayəndə heyətinə sözügedən Komitənin həmsədri Avropa Xarici Fəaliyyət Xidmətində (EEAS) Avropa və Mərkəzi Asiya idarəsinin idarəedici direktoru Qunnar Viqand, Ermənistan tərəfindən isə iqtisadiyyat naziri Karen Çşmarityan rəhbərlik etmişdir.

Mətbuatda yayılmış xəbərlərə istinadən EEAS rəsmisi Q.Viqand yerli jurnalistlərə müsahibəsində Aİ və Ermənistan arasında danışıqlar predmeti olacaq yeni ikitərəfli Saziş layihəsi ilə bağlı bir sıra fikirlər səsləndirmişdir. O, iddia etmişdir ki, Assosiasiya Sazişində vaxtilə mövcud maddələrlə müqayisədə xarici və daxili siyasət, ədliyyə və sektoral əməkdaşlıq sahələri üzrə yeni Saziş layihəsində öz əksini tapacaq maddələr arasında əhəmiyyətli fərq görmür. Bununla belə, EEAS rəsmisi "sərmayə və ticarət sahələrinə fərqli yanaşmanın olacağını və bu sahələrdə əməkdaşlığın Ermənistanın Avrasiya İqtisadi İttifaqına (Avİqİt) üzvlüyündən irəli gələn öhdəliklərə uyğunlaşdırılacağını" bildirmişdir. Q.Viqand Ermənistanla yeni ikitərəfli Sazişin imzalanma tarixi ilə bağlı hər hansı proqnoz verməkdən çəkinərək qeyd etmişdir ki, "bundan əvvəlki Saziş üzrə danışıqlar 3 il yarım çəkdi və sonda biz onu imzalamadıq. Bu dəfə biz danışıqlar aparıb imzalamaq istəyirik".

Q.Viqand Rusiya tərəfindən yeni ikitərəfli Sazişin imzalanmasının qarşısının alınması təhlükəsi ilə bağlı suala cavabında buna ehtimal vermədiyini vurğulamışdır. Onun sözlərinə görə, Ermənistan Avİqİt üzvləri olan Qazaxıstan və Rusiya ilə mütəmadi məsləhətləşmələr aparır. EEAS rəsmisi bu xüsusda Aİ-nin Qazaxıstanla yeni ikitərəfli Saziş imzalayacağına istinad etməklə bu məsləhətləşmənin guya əslində daha çox Aİ-nin maraqlarına xidmət edəcəyinə eyham etmişdir.

Hesab edirik ki, Q.Viqandın Ermənistanda səsləndirdiyi fikirlər, Aİ-nin Ermənistanla əməkdaşlığına dair gözləntilərindən xəbər verir. Qeyd etmək istərdik ki, ümumiyyətlə son vaxtlar Aİ yüksək vəzifəli rəsmiləri Ermənistanı həm Aİ ilə arzu olunan səviyyədə əməkdaşlıq edə biləcək, həm də eyni vaxtda Avİqİt-ə üzvlükdən irəli gələn öhdəliklərin icrasını hər hansı bir qarşıdurma və ya ziddiyət yaratmadan həyata keçirə biləcək potensial "model" ölkə kimi qələmə verirlər. İstisna deyil ki, "model" yanaşmasını təbliğ etməklə Aİ həm də, bu gözləntilərindən irəli gələn tələblərin Ermənistan tərəfindən yerinə yetirilməsinin zəruriliyi ilə bağlı bu ölkəyə ismarıc göndərir. Şübhə etmirik ki, Ermənistanın "model" ölkə qismində özünü doğrultması Rusiyanın da marağındadır. Rusiya Avİqİt üzvlüyündən irəli gələn öhdəlikləri ilə ziddiyət təşkil etməmək şərti ilə Ermənistanın Aİ ilə yaxınlaşmasını təmin edə biləcək hüquqi çərçivənin yaradılmasına etiraz etmir. Rusiya Ermənistan timsalında Aİ və Avİqİt arasında mümkün dialoq sahələrini müəyyənləşdirməyi hədəfləyir.

Güman etmək olar ki, Aİ-nin Ermənistanla danışıqlar aparacağı yeni Saziş layihəsi Qazaxıstanla imzalanacaq "Gücləndirilmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" ilə müqayisədə Aİ ilə əməkdaşlıq nöqteyi-nəzərindən daha iddialı mahiyyət daşımayacaqdır. Buna baxmayaraq, Aİ tərəfindən Qazaxıstan əvəzinə Ermənistanın potensial "model" ölkə kimi irəli çəkilməsi səbəblərini

müəyyənləşdirmək o qədər də çətin deyil. İlkin səbəb kimi təbii ki, Ermənistanın Şərq Tərəfdaşlığı ölkəsi olmasıdır. Lakin əsas səbəb vaxtilə Ermənistanın Assossiasiya Sazişini imzalamaqdan imtina etməsi nəticəsində dəymiş "mənəvi zərər"dən və "məğlub" obrazından Aİ-nin hər vəchlə qurtulmaq istəyidir. Qeyd etmək istərdik ki, vaxtilə Ermənistanla Assosiasiya Sazişi üzrə danışıqlara cəlb olunmuş Avropa Komissiyasının yüksək vəzifəli rəsmiləri bu ölkənin həmin Sazişi son anda imzalamaqdan imtina etməsini hələ də həzm etmirlər.

Brüsseldə fəaliyyət göstərən nüfuzlu "beyin mərkəzləri"nin təhlillərinə əsasən Aİ və Ermənistan arasında imzalanacaq ikitərəfli Saziş daha çox deklarativ məzmuna malik olacaqdır. Belə ki, Ermənistanın AvİqIt-ə üzvlüyü Aİ-nin bu ölkə ilə hər hansı Azad Ticarət Sazişi imzalamasını qeyri-mümkün etmişdir. İddia olunur ki, Aİ-nin tərəfdaş ölkələrdə siyasi islahatların aparılması üçün əsas təsir aləti ikitərəfli Sazişlərdə məhz ticarətlə bağlı müffəssəl müddəalardır. Ermənistanla imzalanacaq yeni Saziş isə arzu olunan təsir vasitəsi kimi Aİ tərəfindən istifadə oluna bilməyəcəkdir.

Assossiasiya Sazişlərinin mətninə nəzər yetirdikdə "beyin mərkəzləri"nin təhlillərində doğru arqumentlərin izlərini görmək mümkündür. Belə ki, Aİ-nin Ukrayna, Moldova və Gürcüstanla imzaladığı Assossiasiya Sazişlərində demokratik prinsiplər, insan hüquqları və fundamental azadlıqlar, qanunun aliliyinə hörmət tərəflərin daxili və xarici siyasətinin, eyni zamanda bu Sazişin "əsas elementlər"i (essential elements) kimi qeyd olunur. Sazişlərdə bildirilir ki, tərəflərdən biri "əsas elementlər"i pozduğu təqdirdə, digər tərəf Sazişin ticarətlə bağlı maddələrinin yerinə yetirilməsini dayandıra bilər.

Yuxarıda qeyd olunanlardan əlavə məlumat üçün bildiririk ki, Aİ və Qazaxıstan arasında "Gücləndirilmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" cari ilin 20 yanvar tarixində paraflanmışdır. Aİ xarici işlər nazirləri şurasının 26 oktyabr 2015-ci il tarixində keçirilmiş iclası zamanı sözügedən Sazişin Aİ adından imzalanması və onun müvəqqəti tətbiqi haqqında qərar qəbul edilmişdir.

Nəzərə alınması üçün diqqətinizə təqdim olunur.

ԱԶԱՏՈՒԹՅՈՒՆ ՌԱԴԻՈԿԱՅԱՆ
azatutyun.am

04.11.2015

# EU Official Looks Forward To New Deal With Armenia

Sargis Harutyunyan

A senior European Union official stressed on Wednesday the importance of a new accord planned by the EU and Armenia, confirming that it will contain many provisions of the Association Agreement which they nearly signed two years ago.

"It will be an important agreement because it will have a very wide scope and good depth," Gunnar Wiegand told reporters in Yerevan. "I don't see any significant changes [compared with the Association Agreement] in terms of foreign policy, domestic policy, home and justice or even economic and sectorial cooperation."

"But there will be a different approach on trade and investments because it is not a preferential agreement and because we are adapting to the policy choice which was made by Armenia to join the Eurasian Economic Union," Wiegand said during a regular session of the EU-Armenia Cooperation Committee co-chaired by him and Economy Minister Karen Chshmaritian.

Wiegand referred to the most important segment of the Association Agreement that would have given Armenia permanent tariff-free access to the EU markets in return for its compliance with the EU's complex commercial rules and regulations. The Deep and Comprehensive Free Trade Area (DCFTA) ran counter to Armenia's unexpected decision to join the Russian-led Eurasian Economic Union (EEU).

President Serzh Sarkisian announced that decision in September 2013, less than two months after his government completed association talks with the EU. The U-turn, widely attributed to Russian pressure, precluded the signing of the Association Agreement.

The new EU-Armenia deal is meant to serve as a less far-reaching alternative to that agreement. Yerevan and Brussels are expected to open official negotiations on the deal before the end of this year.

Wiegand, who represented the EU's executive European Commission in the association talks, would not be drawn on possible dates for its signing. "It took us three and a half years to negotiate the previous agreement and after that we didn't sign," he said. "This time we want to negotiate and sign."

A senior Russian diplomat made clear late last month that Russia does not object to the new legal framework for Armenia's closer ties with the EU. He said Yerevan is "well aware" that it must not contradict membership in the EEU.

Wiegand was confident that Moscow will not seek to block the planned deal. "I don't anticipate this because we know that Armenia is consulting with its partners in the Eurasian Economic Union as much as Kazakhstan does, with whom we have negotiated an agreement," he said.

"We are not in a situation of 'either or,'" added the EU negotiator.

«Ազատ Եվրոպա/Ազատություն» ռադիոկայան © 2015
http://www.azatutyun.am/content/article/27344940.html